# Dürüstlüyə bağlılıq

## Bizim Biznes Davranışı Kodeksimiz

LafargeHolcim



Tam dürüstlüyə əsaslanan yüksək iş göstəriciləri daimi uğurun təməlidir.

Dürüst davranmaq etibar yaradır, bizim nüfuzumuzu qoruyur, biznes xərclərimizi azaldır və səhmdarlar üçün dəyər yaradır.

Dürüst davranmaq hər zaman düzgün hərəkət etmək deməkdir və Kodeksimizə uyğun davranmaqla başlayır.

Dürüst davranmaq və başqalarının da dürüst davranmasını təmin etmək bizim borcumuzdur.

# Mündəricat


05 **BİD-dan ismarıc**

06 **Təqdimat**

09 **1. İş yerində dürüstlük**
10 1.1 Sağlamlıq və Təhlükəsizlik (S vəT)
12 1.2 Müxtəliflik, ədalətlilik və hörmət
14 1.3 Şirkət aktivlərimizin qorunması
16 1.4 Məlumat sistemləri, e-poçt və sosial media

19 **2. Biznes təcrübəsində dürüstlük**
20 2.1 Rüşvətxorluq və korrupsiyaya qarşı siyasət
22 2.2 Hədiyyələr və qonaqpərvərlik
24 2.3 Ədalətli rəqabət
26 2.4 Dəqiq qeydlərin aparılması və hesabatların verilməsi
28 2.5 Maraqların toqquşması
30 2.6 İnsayder ticarəti
32 2.7 Sanksiya və embarqo
33 2.8 Çirkli pulların yuyulmasının qarşısının alınması

35 **3. İcmada dürüstlük**
36 3.1 Ətraf mühit
37 3.2 İnsan hüquqları
38 3.3 İcmanın həyatında iştirak

40 **Məsləhət, təlimat və hesabatlar**

"Biz hamımız LafargeHolcim şirkətinin nüfuzuna görə məsuliyyət daşıyırıq. Mən əminəm ki, etdiyimiz hər bir işdə dürüstlük və dayanıqlı biznes təcrübələrini tətbiq etmək üçün sizə güvənə bilərəm."



# BİD-dan ismarıc

Hörmətli Həmkarlar,

Tikinti həlləri və materiallar sənayesində qlobal lider olaraq şirkət əməkdaşlarının hər birinin dürüst hərəkət etməsi zəruridir. Hər birimiz qaydalara əməl etmək üçün cavabdehik. Bu dünya miqyasında milyonlarla müştərimiz, təchizatçılarımız və əməliyyat bölmələrində və ofislərdə çalışan həmkarlar qarşısında bizim öhdəliyimizdir. Şirkətimizin davamlı uğuru və dayanıqlılığı üçün işin düzgün şəkildə icrası tələb olunur. Nüfuzumuz və işləmək üçün davamlı icazəmiz bizdən həmişə dürüst hərəkət etməyimizi tələb edir və gördüyümüz hər işdə bizi mükəmməlliyə doğru aparır.

Bizim İşgüzar Davranış Qaydaları əməkdaşlardan gözlənilən davranma qaydasını müəyyən edir. Bu qaydalarda bütün iş vəziyyətlərinin açıq-aydın göstərilməsi mümkün olmasa da onlarda bəzi misallar və bizim hansı ruhda fəaliyyət göstərdiyimiz göstərilir. Biz heç bir istisna olmayaraq bütün əməkdaşlarımızın hər gün dürüstlüklə hərəkət etməsinə güvənirik. Biz məhsullarımız, əməliyyat standartları və işçilərimizlə çox qürur duyuruq. Biz fəaliyyət göstərdiyimiz sənayedə lider olmaq üçün unikal mövqeyə malikik və biz hamımız fürsətlərdən faydalanmalı və tutduğumuz mövqeyin nəzərdə tutduğu məsuliyyəti qəbul etməliyik.

Xahiş edirik qaydaları oxuyun və İşgüzar Davranış Qaydalarını dərk etdiyinizə əmin olun. Əgər sizdə hər hansı bir qeyri-müəyyənlik yaranarsa bunu birbaşa menecerinizlə müzakirə edin. Mən hər zaman hamıdan həm bu məktubun, həm də Davranış Məcəlləsinin ruhuna uyğun işləməsini gözləyirəm.

Biz hamımız LafargeHolcim şirkətinin nüfuzuna görə məsuliyyət daşıyırıq. Mən əminəm ki, etdiyimiz hər bir işdə dürüstlük və dayanıqlı biznes təcrübələrini tətbiq etmək üçün sizə güvənə bilərəm.

Hörmətlə,

**Yan Yenisch**
Qrup Baş İcraçı Direktoru

**Kit Karr**
Qrup Baş Hüquq Məsləhətçisi

# Təqdimat

**Bizim Kodeksimiz təlimatdır və Sizə gündəlik işinizdəki tapşırıqların öhdəsindən gəlməyə kömək etmək üçün nümunələr göstərir. Burada eyni zamanda LafargeHolcim siyasətləri, müvafiq qanunlar və təlimatlara istinadlar verilmişdir, çünki bu, bizim Kodeksimiz və Komplayens Proqramımıza daxil edilən bir çox mövzuların fonunu təmin edir.**

LafargeHolcim gələcəkdə təlimat kimi istifadə edilə bilən yeni korporativ siyasətləri yeniləyir və inkişaf etdirir, odur ki, zəhmət olmasa, yerli intranetinizi, eləcə də LafargeHolcim-in qlobal saytının siyasətlər bölməsini mütəmadi olaraq yoxlayın.

### Dürüst davranış

LafargeHolcim dürüstlük və məsuliyyətin ön planda olduğu və komplayensin əsas diqqət mərkəzinə alındığı bir mühit yaratmağa çalışır. Kodeksimiz və LafargeHolcim siyasətləri və bəyannamələri ilə bərabər ümumi hiss və müsbət mühakimədən istifadə etmək çox vaxt biznesin dürüstlük əsasda yerinə yetirilməsini təmin etmək üçün kifayət olacaq. Bizim Kodeksimiz iş yerində yaranan hər bir vəziyyətə uyğun olmaya bilər, lakin bizə məsələni anlamaq və əxlaqi qərarlar verməyə kömək edəcək. Biz əməkdaşlarımızın hətta təzyiq altında olduqda belə əxlaqi prinsiplərə əsasən düzgün qərarlar verə bilməsini gözləyirik.

### Hər kəs, hər yerdə

LafargeHolcim şirkətlərinin hamısında və bizim birgə müəssisələrimizdə nəzarətimiz altında olan hər bir əməkdaş, direktor və məmurumuz ("əməkdaşlar") LafargeHolcim adından çıxış etdikdə və ya işlədikdə hər zaman bu Kodeksə əməl etməlidir. Nəzarətimiz altında olmayan şirkətlərdə biz bu Kodeksə qeyd edilən davranış standartlarının tətbiq edilməsinə çalışırıq. Xidmət təchizatçıları, podratçılar və biznes ortaqları kimi hər kəsdən bizim adımızdan çıxış edən zaman bu Kodeksə əməl etmək tələb ediləcəkdir.

### Təlim və tədris

Bütün əməkdaşlar giriş və ətraflı komplayens təlimlərinə cəlb edilir. Bu sessiyalar Sizin üçün maraqlandığınız məsələləri qaldırmaq və bu Kodeksi gündəlik işinizin bir hissəsi etmək barədə müzakirələr aparmaq imkanıdır.

### Rəhbərlər üçün daha yüksək standartlar

Hər səviyyədə rəhbərlərin bu Kodeksə əsasən əlavə məsuliyyətləri vardır ki, buraya da əməkdaşların sual verəcək, onları narahat edən məsələlər barədə danışacaq və pozuntular barədə məlumat verə biləcək mühit yaratmaq daxildir. Dürüst rəhbərlərə dəyər verilir və onlar təşkilatda təşviq edilir.

### Kodeksimizin tələblərinin pozuntusu

Biz Kodeksimizə ciddi əməl etməliyik. Kodeksimizin, siyasətlərimizin, bəyannamələrimizin və ya qanunun pozuntusu intizam tədbiri və işdən azad edilmə daxil olmaqla ciddi nəticələrə gətirə bilər, eləcə də şirkət və fiziki şəxslər üçün mülki və ya cinayət məsuliyyəti yarana bilər.

**Rəhbərlərdən aşağıdakılar gözlənir:**

- Nümunə olaraq rəhbərlik etmək - başqa sözlə desək, davranışı ilə dürüst olmağın nə demək olduğunu göstərmək.
- Əməkdaşların Kodeksin tələblərini anlamasını təmin etmək üçün ona hesabat verənlərlə əlaqə saxlamaq və onları müvafiq vəsaitlərlə təmin etmək.
- Dürüst şəkildə hər hansı sual qaldıran və ya narahatlığını bildirən əməkdaşları dəstəkləmək.

Kodeksi müvafiq şəkildə tətbiq etmək.

**Addım atmazdan öncə həmişə özünüzə aşağıdakı sualları verin**

- Mənim davranışım qeyri-dürüst, qeyri-əxlaqi və ya qeyri-qanuni ola bilərmi?
- LafargeHolcim və ya onun nüfuzuna ziyan vura bilərmi?
- LafargeHolcim şirkətinin əməkdaşları, müştəriləri, səhmdarları və ya icmanın hörmətini itirməsinə səbəb ola bilərmi?
- Həmkarlar, müştərilər və ya səhmdarlar kimi başqa şəxslərə ziyan vura bilərmi?

Bu suallardan hər hansı birinin cavabı "BƏLİ" və ya hətta "OLA BİLƏR" olarsa, Siz potensial problemi müəyyən etmiş olursunuz və Sizin üçün mövcud olan bir sıra resurslardan (rəhbərlər, İnsan Resursları, Hüquq Departamenti, Daxili Nəzarət, Daxili Audit, Daxili Təhlükəsizlik, eləcə də yerli Komplayens mütəxəssisləri) təlimat almalısınız.



# Bu mənim üçün nə deməkdir?

?

LafargeHolcim şirkətinin satış və marketinq komandaları aylar və saatlarla inşaat şirkətindən böyük məbləğli təchizat müqaviləsi qazanmaq ümidi ilə çalışmışlar. Tenderdən əvvəlki həftə hüquqşünas maliyyə direktoruna zəng edərək inşaat şirkətində yaxşı əlaqəsi olan şəxsi işə götürərsə LafargeHolcim şirkətinin tenderi udacağına şübhə etmədiyini bildirir. Bu layihənin əldə edilməsinin LafargeHolcim şirkəti üçün ən vacib irəliləyiş olması səbəbindən maliyyə direktoru təklifi qəbul etmək istəyir. Bu zaman o, nə etməlidir?

**Bu vəziyyət qırmızı bayraq nişanı ilə işarələnir. Sövdənin əldə edilməsi LafargeHolcim şirkəti üçün çox vacib olsa da, qanunu pozmaq və LafargeHolcim nüfuzuna xələl gətirmək riski daşıyır. O, yerli komplayens mütəxəssisi ilə məsləhətləşmədən heç bir addım atmamalıdır.**

!

**Mühüm qeyd:** Yerli qanun və Kodeks arasında fərq olduqda biz hər zaman ən yüksək standartı tətbiq edirik. Kodeksə sadiq qalmaq müvafiq yerli qanuna uyğun olmadıqda, Siz yerli komplayens mütəxəssisi ilə məsləhətləşməlisiniz.

# 1. İş yerində dürüstlük



# 1.1 Sağlamlıq və Təhlükəsizlik (S və T)

LafargeHolcim şirkətində biz işçilərimiz, podratçılarımız, müştərilərimiz və səhmdarlarımız üçün sağlam və təhlükəsiz mühit yaratmağa çalışırıq. Heç kəs bizimlə iş zamanı ziyan görməməlidir. Bizim məqsədimiz insanlara sıfır ziyandır. Bizim buna nail olmağımız üçün hər kəsin iştirakına ehtiyacımız var.

İdarəetmə prosesimiz vasitəsilə biz hər bir əməkdaşın nə üçün cavabdeh olduğunu və uğur qazanmaq üçün nə cür dəstək alacaqlarını anlamasını təmin edirik. Biz sağlam və təhlükəsiz mühit təmin etməyə çalışırıq və eyni zamanda S və T üçün məsuliyyət daşıyan işçilər və kollektivi həvəsləndirmək mədəniyyətini inkişaf etdirmək üçün əməkdaşlar və podratçılarla birgə çalışırıq.

Biz S və T-ni bütün biznes proseslərinə tətbiq edir və S və T funksiyasının dəstəyi ilə bizneslə bağlı narahatçılıq yaradan məsələlərin qaldırılması və həll edilməsi mədəniyyətini dəstəkləyirik.

Əməyin mühafizəsi və texniki təhlükəsizlik LafargeHolcim üçün başlıca dəyərdir və bu o deməkdir ki, LafargeHolcim-lə əlaqə quran hər bir işçi və podratçı hər hansı bir ciddi zədənin və bədbəxt hadisənin qarşısını almaq üçün nə etməli olduğunu bilməlidir.



**Sağlamlıq və Təhlükəsizlik Qaydaları:**

**Qayda 1** Mən hər hansı tapşırığa başlamazdan öncə riskləri qiymətləndirir və idarə edirəm.

**Qayda 2** Mən yalnız səlahiyyətim olan əməliyyatları yerinə yetirirəm.

**Qayda 3** Mən heç vaxt sağlamlıq və təhlükəsizlik cihazlarını inkar edib onlardan sui-istifadə etmirəm və mən hər zaman tələb edilən FMV geyinirəm.

**Qayda 4** Mən spirtli içki və ya narkotik vasitənin təsiri altında işləmirəm.

**Qayda 5** Mən bütün hadisələr barədə məlumat verirəm.

Bu qaydalara əməl edərək yaşamaq işləməyin şərtidir.

**Müvafiq LafargeHolcim Siyasəti**

- Qrupun Sağlamlıq və Təhlükəsizlik (S və T) Siyasəti

# Bu mənim üçün nə deməkdir?

?

İş yerinə gəldiyinizdə həmkarınızın tapşırıq üçün müvafiq alətdən istifadə etmədiyi ilə qarşılaşırsınız. Bu zaman nə etməlisiniz?

**Heç kəs heç bir təhlükəsizlik təlimatını pozmamalı və ya ona müdaxilə etməməlidir (buraya riskin qiymətləndirilməsi və müvafiq alətlərdən istifadə daxildir). Bunun üçün Siz həmkarınızla bu məsələni qaldırmalı və onun tapşırığı təhlükəsiz şəkildə icra etməsindən əmin olmaqla bağlı ona kömək etmənizi istəyib-istəmədiyini soruşmalısınız.**

!

?

Bir gün Siz işə tez gəlirsiniz və həmkarınızın bir neçə həbi şirə ilə birlikdə qəbul etməsini görürsünüz. Həmkarınızla soyunma otağında salamlaşdıqda onun nəfəsindən azca spirtli içki iyi hiss edirsiniz. Onun spirtli içki içib-içmədiyini soruşduğunuzda o, Sizə içmədiyini, iyin isə dişyuyan vasitədən gəldiyini deyir. Bu zaman nə etməlisiniz?

**Hər kəsin iş yerində təhlükəsizlikdə olduğundan əmin olmaq üçün həmkarlarınızla bağlı narahatlıqlarınızı rəhbəriniz və ya İnsan Resursları ilə müzakirə etməniz vacibdir. Həmkarınızınköməyə ehtiyacı olan problemi ola bilər və spirtli içki və ya narkotik maddənin təsiri altında olaraq işləməsi özündən başqa ətrafındakılara da ziyan vura bilər.**

!

?

Siz S və T ilə bağlı təşkilatınızdakı problemdən agahsınız və qaydalara əsasən onun barəsində hesabat verilmədiyindən şübhələnirsiniz. Bu zaman nə etməlisiniz?

**Rəhbərinizin hadisə barədə məlumatlı olduğundan əmin olun və problem haqqında ona bildirildiyini təsdiq edin. Birbaşa olaraq problemi rəhbərinizlə müzakirə etməkdən çəkinirsinizsə, yerli S və T dəstəyi, yerli komplayens mütəxəssisi və ya bir sıra digər yerli vasitələrdən biri ilə əlaqə saxlayın. Bunlar qeyri-mümkün kimi görünürsə, bu zaman Qaynar Xəttdən istifadə edə bilərsiniz.**

!

# 1.2 Müxtəliflik, ədalətlilik və hörmət

**80 ölkədə milyonlarla müştəriyə xidmət edən 80 000-dən çox əməkdaşı olan LafargeHolcim mükəmməl müxtəlif işçi qüvvəsi toplamağa can atır.**

Biz bir-birimizə ləyaqətli davranmaq, yəni, cins, din, irq və ya seksual orientasiyadan asılı olmayaraq fərqliliyi qəbul etmək kimi vəzifəmizin olduğuna inanırıq. Fərqlər dünyanın müxtəlif perspektivlərini işıqlandırır ki, bu da LafargeHolcim şirkətinin dünya perspektivini genişləndirir və bizə yaxşıların yaxşısı olmağa imkan verir. Beləliklə biz ədalətli və bütün əməkdaşlarımız, müştərilərimiz və biznes ortaqlarımızın bir-birinə hörmət etməsinə kömək edən iş şəraitini qiymətləndirir və təşviq edirik.

Biz hamımız şəxsi ləyaqətin, məxfiliyin, azaldığın, kollektiv danışıqların və şəxsi hüquqlar və hər kəsin fərdi təhlükəsizliyinin gündəlik işin bir hissəsi olduğu bir mühit yaratmağa çalışırıq. Biz inanırıq ki, iş yerində hörmət iş göstəriciləri və işə cəlbetmə üçün vacibdir.

Vəzifəsindən asılı olmayaraq bütün əməkdaşlarla təşviqat, təlim, işə qəbul, kompensasiya və iş müqaviləsinə xitam verilməsi zamanı ədalətli davranılacaq.

**Təhdidlərə və ya zorakılığa yolverilməzlik**
İş mühitində pozuntu, təhqiredici davranış və ya hədə-qorxu yaranmaması üçün bütün əməkdaşlar nəzakətli və hörmətcil olmalıdır və bu, yalnız LafargeHolcim mülkiyyətinə qarşı deyil, eyni zamanda LafargeHolcim biznes fəaliyyəti zamanı, yəni, müştəri ilə görüşlər, LafargeHolcim maşınlarının idarə edilməsi və yerli icma ilə əlaqələr zamanı da tətbiq edilməlidir. Həmişə peşəkar davranmalıyıq.



**Təcavüz**
"Təcavüz" xoşagəlməz davranışdan ibarət ayrıseçkilik formasıdır və təhqiredici, narahatedici və ya zorakı iş mühiti yaratmaq məqsədi daşıyır. Təcavüz bir çox formada ola bilər, məsələn, fiziki əməllər, şifahi və ya yazılı qeydlər və ya vizual təsvirlər. İş yerində düşmənçilik və ya narazılığın yaranmasına səbəb olan seksual təcavüz, xoşagəlməz seksual hərəkətlər, seksual hərəkət tələbi və ya digər şifahi və ya fiziki seksual davranış. LafargeHolcim əməkdaş və ya əməkdaş olmayan şəxslər tərəfindən edilən bütün növ təcavüzü qəti qadağan edir.

**Ayrıseçkilik**
Biz müxtəlif etnik qrupa, mədəniyyətə, dinə, yaşa, sağlamlıq vəziyyətinə, tibbi problemlərə, irqə, seksual eyniliyə, cinsə, dünya görüşünə, müxtəlif siyasi təşkilatlar və ya azlıqlara aid olan insanlarla birgə işləyirik. Bizim bir-birimizə hörmətimiz və işlədiyimiz bir sıra ölkələrin əmək qanunlarına əsasən biz bu xüsusiyyətlərə görə heç kimi diskriminasiya etmirik və ya hər hansı digər təhqiredici davranış göstərmirik. Bu prinsiplər, təlim, qiymətləndirmə, təşviqat və mükafat daxil olmaqla bütün işçi-işəgötürən münasibətlərinə aid edilir.

# Bu mənim üçün nə deməkdir?

?

Siz satış departamentinə işə qəbul etmək üçün satış meneceri axtarırsınız. Siz inanırsınız ki, satış biznesi "kişi işidir" və bu vəzifə üçün yalnız kişi namizədləri nəzərdən keçirə bilərsiniz.

**Sizə yalnız kişi namizədlər arasından seçim etmək icazəsi verilmir və Siz qadın namizədlərin ərizələrini rədd edə bilməzsiniz. Bu, cinsi mənsubiyyətlə bağlı ayrıseçkilik hesab edilə bilər. Sizin axtarışınız namizədlərin ixtisasına, bilikləri, təcrübəsinə və vəzifəyə nə qədər uyğun olmalarına əsaslanmalıdır.**

!

?

Həmkarlarınızdan biri mütəmadi olaraq qarşı masadakı həmkarı ilə zarafat edir. İdarədə hər kəs bu zarafatları və onların şərhlərini eşidir. Bəzən bu zarafatlar bəzi insanların xoşuna gəlir, lakin xoşlarına gəlməyən və ya təhqiredici hesab edilən zarafatlar da olur. İnsanların seksual orientasiyası üzərində edilən zarafatlar bir şəxsi xüsusilə narahat edir. Bu zaman nə etməlisiniz?

**Siz həmkarınızla danışmalı və zarafatın gülməli olmasına baxmayaraq, idarədə hər kəs tərəfindən qəbul edilmədiyini və bəzilərinin təhqiredici olduğunu söyləməlisiniz. O, bunu anlamadıqda bu məsələni rəhbəriniz və ya İnsan Resursları departamentinin nümayəndəsinə çatdırmalısınız.**

!

?

Zavoda iş səfəri zamanı divarda çılpaq qadınların şəkli olan təqvim asıldığını görürsünüz. Bundan xoşunuz gəlməsə də buna reaksiya vermək istəmirsiniz, çünki sonda bu zavodun ərazisində heç qadın əməkdaş yoxdur.

**Bu barədə məsələni qaldırmaq lazımdr. Seksual xarakterli şəkil və ya rəsmlərin LafargeHolcim idarələrində mövcud olması vizual təcavüz hesab edilir və xüsusilə qadağan edilmişdir. Siz gördükləriniz və təqvimin divardan çıxarılması barədə rəhbəriniz və ya zavodun rəhbəri ilə danışmalısınız.**

!

# 1.3 Şirkətn aktivlərinin qorunması

**Bütün əməkdaşlar maddi və əqli mülkiyyətin, eləcə də maliyyə aktivlərinin zədələnməməsi, oğurlanmaması, sui-istifadə edilməməsi və ya tullanmamasını təmin etmək üçün şirkətimizin aktivlərini qorumaq və düzgün mühakimə yeritmək üçün məsuliyyət daşıyırlar.**

**Maddi aktivlərin qorunması**
LafargeHolcim-in avadanlıqlar, materiallar və binalar kimi fiziki aktivləri gündəlik işin icra edilməsi üçün vacibdir. Bu aktivlər bütün dünya üzrə insanların ağır işi nəticəsində əldə edilmişdir. LafargeHolcim üçün işləməklə bizim hər birimiz bu aktivlərlə bağlı məsuliyyətli davranmalı və onların oğurlanması, itirilməsi, sui-istufadə edilməsi və tullanmasına yol verməməliyik. Bundan əlavə biz bütün resursların müvafiq biznes məqsədləri üçün istifadə edilməsini təmin etməliyik.

**Əqli mülkiyyətin qorunması**
LafargeHolcim-də biz mütəmadi olaraq dəyərli, qeyri-ictimai ideyalar, strategiyalar və başqa növ biznes məlumatı yaradırıq ki, eyni zamanda da bunların sahibi olur və onları intellektual mülkiyyət kimi qorumalı oluruq. Bu cür məlumat bizə rəqabət üstünlükləri verən mühüm məqamdır. Bu cür məlumatın qeyri-müvafiq şəkildə açıqlanması qadağan edilir və biz məxfi məlumatın qeyri-müvafiq açıqlanması risklərindən ehtiyyatlı olmalıyıq.

**İşçilərin və üçüncü tərəflərin məxfi məlumatı**
Gələcək, cari və ya keçmiş işçilərlə bağlı və şəxsi məlumatına, eləcə də iş göstəricilərinin qiymətləndirilməsi, əmək haqqı, təqaüd və bonusları barədə məlumata çıxış icazəsi yalnız səlahiyyətli şəxslərə məxsusdur və məlumatın məxfiliyi qanunvericiliyinə əsasən verilir. Bundan əlavə, biz müştərilər, təchizatçılar və başqa biznes ortaqlarımız tərəfindən bizə etibar edilən məxfi məlumatın özümüzə aid məxfi məlumat kimi qorunması üçün məsuliyyət daşıyırıq.



Adi biznes fəaliyyəti əsnasında başqa şirkətlər, eləcə də müştərilər, təchizatçılar və rəqiblər barədə məlumat əldə edilir. Lakin rəqiblər barədə məlumatın əldə edilməsində də hüquqi və əxlaqi məhdudiyyətlər vardır:

- Biz rüşvət və ya rəqiblərin güdülməsi kimi qeyri-müvafiq yollarla məlumatı əldə etməməliyik.
- Biz ümumilikdə qeyri-ictimai mənbələrdən rəqiblər barədə məlumatı əldə və ya tələb etməməliyik. Hər hansı xüsusi vəziyyətdə "qeyri-ictimai" məlumat sözünün nə demək olduğunu aydınlaşdırmaq üçün yerli komplayens mütəxəssisi ilə əlaqə saxlayın.
- Biz məxfi məlumatın əldə edilməsi üçün rəqibin əməkdaşını işə qəbul etməməli və ya rəqibin əməkdaşından keçmiş işəgötürəni barədə məxfi məlumatı açıqlamasını tələb etməməliyik.
- Biz rəqib tərəfindən təklif edilmiş məxfi ola bilən məlumatı qəbul etməməliyik. Siz bu məlumatın məxfi olub-olmadığını, necə əldə edildiyini və material "gizli", "məxfi", "məxfi mülkiyyət" və ya "yalnız sizin üçün" sözləri ilə təsnifləşdirilmiş olub-olmadığını öyrənməlisiniz.

# Bu mənim üçün nə deməkdir?

?

Mən qatarla işə gedən zaman bəzən işlə bağlı zənglər etməli oluram.
Bu problemdirmi?

**Siz taksilər, qatarlar, liftlər və ya konfrans və ticarət tədbirləri kimi ictimai yerlərdə qeyri-ictimai məlumatı müzakirə etməməlisiniz. İctimai yerdə işlə bağlı zəng etmək lazım olduqda ətrafınızda olan insanlara diqqət yetirin.**

!

?

Rəqib Sizə səhvən Sizin adınızı başqası ilə qarışıq salaraq məxfi məlumat qoşulmuş e-poçt məktubu göndərmişsə, Siz nə etməlisiniz?

**Bunun xətanın nəticəsi və qoşmada məxfi məlumat olduğunu bilirsinizsə, məktubu açmayın, çap etməyin və ya paylaşmayın. Əgər Siz sənədi açmısınızsa, onu bağlayın, məlumatdan istifadə etməyin və dərhal yerli komplayens mütəxəssisi ilə əlaqə saxlayın. Hər halda yerli komplayens mütəxəssisi ilə məsləhətləşməmişdən öncə məktubu silməyin.**

!

# 1.4 Məlumat sistemləri, e-poçt və sosial media

**İş yerindəki texnologiyalar bizə müştərilərimizə daha səmərəli şəkildə xidmət etmək imkanı verir. Biz bütün dünya üzrə proses və əlaqələrimizin dəstəyinə güvənirik.**

İnternetə çıxış, e-poçt və digər proqramlar biznes məqsədləri üçün təmin edilir. Bütün biznes əlaqələri və münasibətlər digər LafargeHolcim əməkdaşları ilə daxili şəkildə və üçüncü tərəflərlə xarici şəkildə LafargeHolcim Group tərəfindən təsdiq edilmiş kommunikasiya və e-poçt hesabları vasitəsilə mümkün edilir. E-poçt məktublarının və qoşmaların göndərilməsi və qəbul edilməsi zamanı Siz çap edilmiş kommunikasiya üsullarına aid standartları tətbiq etməlisiniz. LafargeHolcim daxili və ya üçüncü tərəflərlə kommunikasiyaları içtimai şəkildə açıqlamaq (mətbuat, sərmayəçilər və ya başqaları daxil olmaqla) və ya sosial media saytlarından dərc etmək qadağandır.

Siz LafargeHolcim şirkətinin İT sistemləri, internetə çıxışı, e-poçt ünvanları və ya başqa məlumatı və kommunikasiya proqramlarından qeyri-qanuni və ya qeyri-əxlaqi məqsədlər üçün istifadə etməməlisiniz. Qeyri-müvafiq və ya təhqiredici olan məlumatın axtarılması, yüklənməsi və ya yönləndirilməsi intizam tədbirlərinə səbəb ola bilər. Siz eyni zamanda nəzərə almalısınız ki, LafargeHolcim İT sistemlərdindən əldə edilən məlumatdan və ya proqram təminatından İT departamenti tərəfindən icazə verilmədiyi halda şəxsi məqsədlər üçün istifadə etməməli və ya surətini çıxartmamalısınız.

Sosial media bizə dərhal və geniş şəkildə əlaqə saxlamaq imkanı verir. Həmkarlarınız və ya iş yeriniz olan şəkilləri və ya mətnləri yaymazdan öncə yaxşıca düşünün. Bu gözlənilmədən şəxslərin və ya LafargeHolcim şirkətinin nüfuzunun korlanmasına gətirə bilər.

**Müvafiq LafargeHolcim Siyasəti**

- Məlumat Sistemlərindən İstifadə Direktivi
- Sosial Media ilə bağlı Tövsiyələr

# Bu mənim üçün nə deməkdir?

?

Siz USB yaddaş cihazına Microsoft Word quraşdırıcının surətini atmısınız və evdəki kompüterinizdə quraşdırmağı planlaşdırırsınız. Siz LafargeHolcim şirkətinin bundan ziyan görə bilməsini hiss edirsiniz, çünki orijinal fayl onun sistemlərində qalır. Bunu edə bilərsinizmi?

**Çox güman ki, yox. LafargeHolcim proqram təminatını işə salan zaman o, adətən proqram təminatını buraxan şirkətlə lisenziya müqaviləsi bağlayır. Proqram təminatından şəxsi məqsədlər üçün istifadə çox güman ki, bu cür lisenziya müqavilələrinin şərtlərini pozur və LafargeHolcim qanunsuz istifadə üçün məsuliyyət daşıya bilər. Siz bunu etmək üçün İT departamentindən icazə almalısınız.**

!



# 2. Biznes təcrübəsində dürüstlük



# 2.1 Rüşvətxorluq və korrupsiyaya qarşı siyasət

LafargeHolcim keyfiyyət, etibar və bir sıra başqa əsaslara görə məhsul və xidmətlərini satır, lakin rüşvətxorluqla məşğul olmur.

Biz fəaliyyət göstəridiyimiz cəmiyyətdə sağlam inkişafı dəstəkləmək və mümkün etməyə çalışırıq. Biz görürük ki, bu, 80-dan çox ölkədə fəaliyyət göstərmək üçün əsas vəzifə borcumuzdur. Qanunlara əməl etmək və əxlaqi biznes fəaliyyəti göstərməklə bağlı nümunə olmaq bizim bu istəyimizin həyata keçməsinin bir yoludur.

Biz bilirik ki, hətta az miqdarda rüşvət cəmiyyətdə ciddi problemlər yaradır və çox vaxt orta sinifdən rüşvət tələb etmək aşağı təminatlıların dövlət xidmətlərində iştirakını istisna edir. Biz bilirik ki, rüşvət vermək heç zaman yaxşı deyil, yəni sabit biznes deyil və heç bir halda rüşvətxorluq LafargeHolcim şirkətinin dürüstlük mədəniyyətinə uyğun deyil.

Korrupsiyaya qarşı beynəlxalq qanunlar dünyanın bütün fəaliyyət sahələrinə tətbiq edilir. İctimai rəsmilər və ya fiziki şəxslər daxil olmaqla heç bir formada rüşvət vermək, təklif etmək, almaq və ya icazə vermək əsla yolverilməzdir. Biz eyni zamanda rüşvət vermək kimi özümüz edə bilmədiyimiz əməllər üçün üçüncü tərəfləri cəlb etmirik. LafargeHolcim şirkətinin adından çıxış edən üçüncü tərəflər heç zaman rüşvət verməməli və almamalıdır.

"Üçüncü tərəflər" dedikdə, məsləhətçilər, podratçılar, franşizalar, satış agentləri, təkrar satıcılar, gömrük brokerləri, mühasibat və ya hüquq firmaları və ya viza, icazə və ya yoxlama sertifikatları almaqda kömək edən şirkətlər və birgə müəssisələr nəzərdə tutulur. Üçüncü tərəfin növündən asılı olmayaraq LafargeHolcim adından biznes fəaliyyəti ilə məşğul olan və ya xidmət göstərən bütün üçüncü tərəflərin LafargeHolcim Üçüncü Tərəflərin Yoxlanması Direktivinə uyğun seçilməsi vacibdir.



**Kömək Ödənişləri**

Bəzən dövlət rəsmilərinə qanuni olan adi dövlət xidmətləri üçün ödənilən xırda ödənişlər "kömək ödənişləri" adlanır. LafargeHolcim əməkdaşlarına bu cür ödənişlər etməyi qadağan edir. Bu qaydadan yeganə istisna əməkdaşın öz həyatı, şəxsi təhlükəsizliyi və ya sağlamlığının təhlükə altında olmasına inanması və ya ödəniş etmək məcburiyyətində olması zamanı mümkündür. Əməkdaş şəxsi təhlükəsizliyi və ya sağlamlığı üçün bu cür ödəniş etməli olduqda ən qısa zamanda bütün müvafiq məlumatları yerli komplayens mütəxəssisinə təqdim etməlidir və ödəniş LafargeHolcim-in mühasibatlığında dəqiq qeyd edilməlidir.

Rüşvət yalnız nağd pul deyil bir neçə dəyərli üstünlüklər formasında ola bilər: məsələn, səyahət imkanı, təhsil haqqı, xeyriyyə iaənələri və digər üstünlük formaları.

# Bu mənim üçün nə deməkdir?

?

Siz öz ölkənizdə LafargeHolcim üçün yeni sement istehsalı zavodu tikməyi planlaşdırırsınız. Yerli orqanlarla danışıqlar zamanı müvafiq yerli qurumun rəhbəri Sizə bildirir ki, tikməyi planlaşdırdığınız zavodun yanında şəhər üçün yeni klinika da tikmək lazım olacaq. O, aydın qeyd edir ki, LafargeHolcim şirkətinin yeni klinikanın tikintisini dəstəkləməsi LafargeHolcim şirkətinin yeni zavod üçün icazə almasına kömək etməklə bərabər, onun yenidən seçilmə planlarını da dəstəkləyəcək. Bu zaman nə etməlisiniz?

**Bu sorğu müvafiq anti-korrupsiya qanunlarının pozulması ola bilər. Siz yerli komplayens mütəxəssisi və rəhbərinizlə bu vəziyyəti müzakirə etməli və təlimat almalısınız.**

!

?

Üçüncü tərəf Sizə bildirir ki, "lazım olan adamları tanıyır" və avans olaraq müəyyən məbləğ alsa yeni müqavilənin imzalanmasını sürətləndirə bilər. O, Sizə deyir ki, bu məbləğ ona səyahət üçün lazımdır, lakin səyahətin lazım olub-olmayacağından tam əmin deyilsiniz. Bu zaman nə etməlisiniz?

**Üçüncü tərəflərə ödənişlər kifayət qədər təfərrüatlı qaydada göstərilən xidmətləri və məbləğlərini göstərən hesab-faktura qarşılığında edilməlidir. Üçüncü tərəfin avans olaraq ödəniş etmək sorğusu Sizdə "nə üçün" sualı doğurmalı və izahatını dinləyən zaman çox diqqətli olmalısınız. Siz eyni zamanda üçüncü tərəfin vəzifə borcu və nüfuzuna da diqqət yetirməlisiniz.**

!

# 2.2 Hədiyyələr və qonaqpərvərlik

**Yaxşı biznes əlaqələri etibar və xoş məram üzərində qurulur və müştəri və biznes ortaqlarımızı dəyərləndirdiyimiz və hörmət etdiyimiz üçün hər bir tərəf vaxtaşırı olaraq bunu hədiyyə və ya qonaqpərvərlik şəklində ifadə edə bilər.**

Hər hansı hədiyyə və ya qonaqpərvərlik təklif və ya qəbul etməzdən öncə sağlam düşüncə, azad davranış və düzgün mühakimə vasitəsilə biz müsbət münasibətin yanlış anlaşılmasının qarşısını ala bilərik. Hədiyyələr və qonaqpərvərlik hər hansı orta səviyyədə olmalı və heç vaxt mənfi təsir göstərmək üçün istifadə edilməməli və ya maraqların toqquşması vəziyyəti yaratmamalıdır.

Dövlət rəsmilərinə hədiyyə və ya qonaqpərvərlik məsələsinə biz hər zaman ehtiyatla yanaşırıq . Dövlət rəsmilərinin siyahısı geniş şəkildə müəyyən edilmişdir və verilən ölkə üçün ictimai funksiyanı yerinə yetirən hər bir şəxsi nəzərdə tutur (dövlət qulluqçusu) ki, buraya da ictimai agentliklərin və ya dövlətə məxsus müəssisələrin əməkdaşları daxil ola bilər. Bəzi dövlətlərdə və ya dövlət qurumlarında hədiyyə və qonaqpərvərliklə bağlı hətta LafargeHolcim şirkətinin siyasət və təlimatlarından daha ciddi olan xüsusi qaydaları vardır. Siz ictimai rəsmiyə hədiyyə və ya qonaqpərvərlik təklif etməyi planlaşdırırsınızsa, lakin bundan əmin deyilsinizsə, yerli hədiyyə və qonaqpərvərlik qaydaları və ya komplayens mütəxəssisinə müraciət edin.

Siz bizim siyasətlərimiz, təlimatlarımız və ya Kodeksimizdəki qaydaları pozmaq üçün öz pulunuz və ya vasitələrinizdən istifadə etməməlisiniz. LafargeHolcim adından başqalarına təklif edilən bütün hədiyyə və qonaqpərvərliklər müvafiq şəkildə LafargeHolcim kitabları və qeydlərində qeydə alınmalıdır.

### Qonaqpərvərlik

Qonaqpərvərlik dedikdə, LafargeHolcim şirkətinin heç olmazsa bir əməkdaşının iştirak və ya ev sahibliyi etdiyi qida və qəlyanaltı, eləcə də mədəniyyət, əyləncəli və ya idman tədbirləri başa düşülür. Heç bir LafargeHolcim əməkdaşı qatılmadıqda qonaqpərvərlik "hədiyyə" hesab edilir və hədiyyələrlə bağlı qaydalar tətbiq edilməlidir.

### Hədiyyələr

Hədiyyələrə mallar və ya xidmətlər, eləcə də dəyərli olan digər şeylər, məsələn, kreditlər, məktəb xərcləri, tibbi xərclər və səyahətlər və ya mədəniyyət, əyləncə və ya idman tədbirlərinə biletlər daxil ola bilər. Nağd pul hədiyyələri və ya onların ekvivalenti (hədiyyə vauçerləri kimi) və ya bəxşişlərə icazə verilmir, lakin Qrupun komplayens bölməsi tərəfindən əvvəlcədən təsdiq edildikdə çox məhdud sayda yerli istisnalar edilə bilər.

### Hədiyyənin qaytarılması

Hədiyyə LafargeHolcim siyasətləri və ya təlimatlarında qeyd edilən standartları keçərsə, rəhbərinizlə danışın, müvafiq qayda və ya təlimatlara əsasən onun qəbulunu sənədləşdirin və LafargeHolcim şirkətinin daxili qaydalarının bu cür hədiyyə qəbulunu qadağan etməsini izah edərək nəzakətli şəkildə hədiyyəni geri qaytarın. Hədiyyənin qaytarılması həqiqətən mümkün olmadıqda və ya verənin özünü təhqir edilmiş hiss etməsinə səbəb olduqda, bu hədiyyə anonim şəkildə xeyriyyə işlərinə ianə edilməli və bu da mümkün deyilsə, şirkətin adından qəbul edilməli və əməkdaşlar arasında paylanmalıdır (bunun necə edilməsini İnsan Resursları qərar verir).



### Əsas təlimat

Hədiyyənin və ya qonaqpərvərlik faktının qeyri-qanuni və ya LafargeHolcim və ya digər tərəfin siyasət və ya təlimatlarını pozması halının olub-olmadığını özünüzdən soruşun. Sonra hədiyyə və ya qonaqpərvərlik aktının qəzetlərin birinci səhifəsində dərc edilməsi zamanı pərt olmaq və ya şirkəti pis vəziyyətdə qoyma bilməsinin mümkünlüyünü düşünün. Bu suallardan hər hansı birinin cavabı "bəli" olarsa, hədiyyə və ya qonaqpərvərlik aktı qəbul edilməməli və ya ona yol verilməməlidir.

# Bu mənim üçün nə deməkdir?

?

Təchizatçılarımızdan biri ilə qiymət danışıqları aparan zaman onlar mənə həqiqətən getmək istədiyim futbol oyununa bilet təklif edir. Bileti qəbul edə bilərəmmi?

**Xeyr. LafargeHolcim əməkdaşları biznes danışıqları aparılan ərəfədə, tender prosesləri və ya buna bənzər hallar zamanı hər hansı şəxs və ya şirkətdən hədiyyə və ya əyləncə qəbul edə bilməz. Siz təchizatçınıza təşəkkür etməli, lakin təkliflərini rədd etməli olduğunuzun səbəblərini izah etməlisiniz.**

!

?

LafargeHolcim şirkətinin mühüm müştərilərindən biri 50 illik yubileyini qeyd etmək üçün ziyafət təşkil edir. Digər mühüm iş adamları və dövlət məmurları da ziyafətdə iştirak edəcəklər. Mən də dəvət edilmişəm. Bu dəvəti qəbul edə bilərəmmi?

**Bəli, LafargeHolcim nümayəndəsi kimi dəvət edilmisiniz və rəhbərinizin icazəsi ilə ziyafətə qatıla bilərsiniz.**

!

# 2.3 Ədalətli rəqabət

**LafargeHolcim sərbəst bazarlar və ədalətli rəqabətə inanır, çünki bu, bizim müştərilərimizin ən yaxşı məhsulları və xidmətləri əldə etməsini təmin edir.**

Anti-inhisar və rəqabət qanunlarının pozulması heç zaman LafargeHolcim-in maraq dairəsində olmamışdır və buna yol verilə bilməz. Fəaliyyət göstərdiyimiz bütün region və ölkələrdə biz güclü rəqabət aparmağa, lakin təchizatçılar və müştərilərlə də ədalətli davranmağa çalışırıq.

**Bizim əməkdaşlarımız heç zaman birbaşa və ya dolayı yolla aşağıdakıları etməməlidirlər:**

- Aşağıdakı məqsədlər üçün həqiqi və ya potensial rəqiblərlə müqavilə bağlamamalı, danışıqlara daxil olmamalı və ya fəaliyyət koordinasiyası edilməməlidir:
  - Tam və ya qismən qiymət sövdələşmələri, müəyyən etmək;
  - Təchiz edilən məhsul və ya xidmətlərin növü və ya sayını məhdudlaşdırmaq;
  - Bazarları coğrafi qaydada və ya ticarət ortaqları, müştəri seqmentləri və ya məhsul xətlərinə görə bölüşdürmək;
  - Rəqiblərlə tender təklifləri barədə hər hansı danışıqlar aparmaq;
  - Tender prosesinin şərt və nəticələrini təyin etmək;
  - Təchizatçı və ya müştəriləri rəqiblərlə əməkdaşlıq etməkdən çəkindirmək üçün boykot etmək.
- Müvafiq bazarda hökmran mövqedən sui-istifadə etmək.
- Təchizatçılar, distribütorlar və ya satıcılar kimi istehsalat və ya satış zəncirinin müxtəlif iştirakçıları ilə sərbəst və ədalətli rəqabəti aradan qaldırmaq məqsədi ilə müqavilələr bağlamaq.
- Rəqabətlə bağlı həssas məlumat mübadiləsi etmək.
- Müvafiq qanun və qaydaların pozulması ilə rəqabəti məhdudlaşdıra bilən hər hansı davranışlar etmək.

Anti-inhisar qanunlarının pozuntusunun müxtəlif formaları mövcuddur. Siz bu qanunlara, eləcə də LafargeHolcim şirkətinin daxili siyasətlərinə əməl etməli və hər hansı sual və ya narahatlığınız olduqda yerli komplayens mütəxəssisi və Qrupun rəqabət qanunu mütəxəssisləri ilə məsləhətləşməlisiniz.

Anti-inhisar qanunvericiliyi və qaydalar kompleks və çoxsaylıdır və onların icrası müxtəlif amillərdən asılıdır. Şübhəli addımlar atmaqdansa maraqlanmaq və suallar vermək daha yaxşı olar - səhv mühakimə bəraət deyildir.

# Bu mənim üçün nə deməkdir?

?

Digər bir sement şirkətinin nümayəndəsi Sizə zəng edir və hər ikinizin təchiz etdiyiniz məhsul üçün bazarın "təkmilləşdirilməsini" müzakirə etmək üçün başqa ölkədə görüşməyi təklif edir. "Təkmilləşdirmə" görünüşü "təkmilləşdirmənin" icra ediləcəyi ölkədən xaricdə keçiriləcəkdir. Siz görüşə qatıla bilərsinizmi?

**Xeyr. Siz dərhal yerli komplayens mütəxəssisi ilə əlaqə saxlamalısınız. "Təkmilləşdirmə" görüşünə qatılmaq ciddi cinayət əməli kimi sayıla bilər. "Təkmilləşdirmə" kimi kodlanmış sözlər Sizi çaşdırmasın. Başqa ölkədə görüşün keçirilməsi nəticəni dəyişə bilməz, çünki görüş yenə də anti-inhisar qanunlarını poza bilər.**

!

?

Rəqib LafargeHolci-inm ticarət menecerinə yanaşır və növbəti on iki ay üçün qiymətləri təyin etməyi təklif edir. Şirkət EBITDA hədəfinə çatmaq üçün təzyiq altındadır və menecer rəqibin təklifini qəbul etməyi düşünür. O, bu şansdan istifadə etməlidirmi?

**Xeyr. Bu, "kartel" kimi təsnifləşdirilə bilər ki, bu da daha ciddi növ qeyri-qanuni razılaşmadır (şifahi və ya yazılı formada). Rəqabət qanununu pozaraq davranmaq heç vaxt LafargeHolcim şirkətinin maraqlarına aid olmamışdır. Dürüst davranmaq hətta kəşf edilmək şansı cüzi olsa da və ilk baxışdan biznes hədəfinə çatmaq imkanının yüksək olması düşünülsə də qanuna, eləcə də LafargeHolcim siyasət və təlimatlarına əməl etmək deməkdir. Hər zaman yadınızda saxlayın ki, rəqabət qanunlarının pozulması bizim nüfuzumuzu korlaya və Qrup və fiziki şəxslərə qarşı ciddi cinayət və maliyyə tədbirlərinə səbəb ola bilər.**

!

# 2.4 Dəqiq qeydlər və hesabatlar

Sövdələrimiz və əlaqələrimizdə biz düzgün və dürüst oluruq.

Bu, bizim bir-birimizlə münasbətlərimizin əsasıdır və sərmayəçilərimiz, müştərilərimiz, əməkdaşlarımız və biznes ortaqlarımızın, eləcə də ictimai və dövlət rəsmilərinin bizdən gözlədikləridir. Qeydlərin saxtalaşdırılması və ya yanlış olaraq dəyişdirilməsi qadağan edilir. Siz heç vaxt heç kəsi yanlış və ya saxta qeydiər hazırlamaq və ya təsdiq etməyə yönləndirməməli və özünüz də belə addımlardan çəkinməlisiniz. Qeydləri hazırlayan zaman biz hamımız dürüst davranmalıyıq ki, məlumat yanlış əldə edilməsin və çaşdırıcı və ya natamam olmasın. Hər hansı qeydlərin fərqlənməsi müvafiq düzəlişlərlə düzəldilməli və bu düzəlişlər barədə məlumatlı olmalı insanlara aydınlaşdırılmalıdır.

**Qeydlərin aparılması**

Şirkətin qeydləri müvafiq qanunlar və LafargeHolcim siyasət və təlimatlarına əsasən aparılmalıdır. Saxlanması tələb olunan hər hansı qeydin pozulması, gizlədilməsi və ya dəyişdirilməsi qadağan edilir. Nəzarətiniz altında olan hər hansı qeydin şirkət daxilində və ya xarici şəkildə tədqiqatı və ya məhkəmə işində istifadəsinin lazım olma ehtimalı olduğunu bildiyinizdə bu qeydi aparmalı və tələb olunan zaman onu dərhal təqdim edə bilməlisiniz.

Maliyyə və ya qeyri-maliyyə məlumatı üzrə qeydin vaxtında, tam və düzgün şəkildə aparılması və sənədlər və qeydlərin düzgün saxlanması biznesimiz və aşağıdakılar üçün çox vacibdir:

- Etibarlılıq və nüfuz;
- Hüquqi və qanuni öhdəliklər;
- Dəqiq layihələndirmə və biznes qərarları vermək bacarığı; və
- Səhmdarlar və başqa şəxslər qarşısında məsuliyyət.



# Bu mənim üçün nə deməkdir?

?

Rüblük hesabat dövrünün son həftəsidir. Sizin rəhbəriniz komandanızın rüblük rəqəmlərə uyğun olmasından əmin olmaq istəyir və Sizdən təsdiq edilməmiş məhsul satışını indi qeydə almanızı xahiş edir, halbuki satış növbəti həftəyə qədər tamamlanmayacaqdır. Siz düşünürsünüz ki, bu, şirkətdə heç kəsə mənfi təsir etməyəcəkdir. Bu xahişi yerinə yetirə bilərsinizmi?

**Xeyr. Qiymətlər və mənfəət vaxtında qeydə alınmalıdır. Satış tamamlanmamışdır. Bu, yanlış ola bilər və erkən zamanda qeyd etdiyinizdə məbləğ yanlış ola bilər.**

!

?

Siz yenicə ölkəniz üzrə maliyyə nəzarətçisi vəzifəsinə təyin edilmisiniz və anbarda klinker materialının kitablarda qeyd edildiyindən çox az olmasını kəşf edirsiniz. Potensial itki çox yüksəkdir. Siz BİD-la danışırsınız və o, Sizə bildirir ki, bu il heç bir təchizatı yerinə yetirə bilməyəcək və artıq hədəfdən çox uzaqdır. O qeyd edir ki, bu itki növbəti illərə paylaşdırılmalıdır. Buna necə baxırsınız?

**Mənfi. Rəhbərin cavabına baxmayaraq Siz hesabatın dolğun, ədalətli, düzgün və vaxtında hazırlanması üçün məsuliyyət daşıyırsınız. Bu təlimata əməl etsəniz, sənədləri saxtalaşdırmış olursunuz.**

!

# 2.5 Maraqların toqquşması

**Bizim hamımız şəxsi maraqlarımıza deyil, LafargeHolcim şirkətinin maraqlarına uyğun biznes qərarları qəbul etməliyik.**

Maraqların toqquşması vəzifəmizi səmərəli və ədalətli şəkildə yerinə yetirmə zamanı şəxsi maraqlarımıza üstünlük verdikdə və ya üstünlük verilməsi güman edilə bilən hallarda yaranır. Mümkün olduqda, biz LafargeHolcim adından biznes fəaliyyəti ilə məşğul olma zamanı obyektiv və ədalətli qərar vermək bacarığımıza təsir edən və ya edə bilən münasibət və ya fəaliyyətlərdən çəkinirik.

Bu cür münasibət və ya fəaliyyətlər qaçılmaz olduqda Siz onları bilavasitə rəhbəriniz və ya yerli komplayens mütəxəssisinə bildirməlisiniz. Bundan əlavə Siz eyni qaydada peşəkar borcunuzun icrası ilə bağlı ola bilən bütün şəxsi maraqları açıqlamalısınız. Hər hansı şübhə olduqda bu cür münasibətləri və ya fəaliyyətlərin açıqlanması Sizin marağınızdadır. Şəffaflıq çox vaxt istənilən növ qeyri-müvafiq fəaliyyət görüntüsünü aradan qaldırır.

## Digər İş fəaliyyəti

Siz direktor, məsləhətçi və ya rəhbərliyin üzvü kimi digər təşkilata dəvət edilə bilərsiniz. Siz ilk öncə əmək müqavilənizdə bu cür əlaqələrə icazə verilib-verilmədiyini yoxlamalısınız və bundan əlavə əmin olmalısınız ki, bu, Sizin LafargeHolcim şirkətindəki işinizə mənfi təsir göstərməyəcək. Bundan əlavə, bu təşkilat rəqib olduqda, LafargeHolcim ilə biznes əlaqəsi olduqda və ya ictimai və dövlət şirkəti olduqda bu cür əlaqə yerli komplayens mütəxəssisi və rəhbəriniz tərəfindən təsdiq edilməlidir. Eyni tələblər dövlət müəssisəsi üçün işləmək istəyən əməkdaşlara da aiddir. Tam qadağan edilməsə də bir çox rəsmi dövlət mövqeləri LafargeHolcim şirkətinin biznes fəaliyyəti ilə məşğul olanlar üçün həqiqi və ya potensial maraq toqquşması kimi qiymətləndiriləcək.



Biz heç zaman LafargeHolcim mülkiyyəti və ya məlumatından və ya LafargeHolcim-dəki işlə bağlı yaranan heç bir imkandan əlavə şəxsi mənfəət üçün istifadə etmirik.

# Bu mənim üçün nə deməkdir?

?

Texniki avadanlıq təchizatçısı nöqsanlı mexanizm çatdırır və Siz bunu quraşdırıldıqdan sonra aşkar edirsiniz. Sizin qaynatanız təchizat şirkətinin rəhbəridir və siz nöqsanın düzəldiməsini tələb etmək fikriniz yoxdur.

!

**Sizin qəbul etdiyiniz qərar təchizatçı ilə şəxsi münasibətlərdən təsirlənməməlidir. Siz LafargeHolcim şirkətinin maraqlarına uyğun davranmalısınız. Siz eyni zamanda bu məsələni rəhbərinizə bildirməli və yerli komplayens mütəxəssisini təchizatçı ilə şəxsi münasibətləriniz olması barədə məlumatlandırmalısınız.**

?

Dostum mənə yaxınlaşaraq LafargeHolcim bazarında təchiz etmək üçün xammal istehsal edən şirkətə sərmayə yatırmağı təklif edir. Mən yalnız maliyyə səhmlərinə malik olsam və rəhbərlikdə iştirak etməsəm bu, maraqların toqquşması hesab edilərmi?

!

**Bu, ən azından potensial maraq toqquşmasıdır. Həqiqi maraq toqquşması aşağıdakılar kimi müxtəlif amillərdən ibarət ola bilər:**

- **LafargeHolcim şirkətində tutduğunuz vəzifə;**
- **LafargeHolcim təchizatçılarının seçimində iştirakınız;**
- **Sərmayənizin və əlaqədar səhmdarlığınızın məbləği;**
- **LafargeHolcim şirkətinin müştəri kimi mühümlüyü.**

**Hər halda Siz müvafiq təlimat və məsləhət almaq üçün şirkətə sərmayə yatırmazdan öncə rəhbəriniz və yerli uyğun mütəxəssisini məlumatlandırmalısınız. Bundan əlavə burada rəqabətlə bağlı nəzərə alınmalı olan məqamlar da ola bilər.**

# 2.6 İnsayder ticarəti

LafargeHolcim açıq və ədalətli qiymətli kağızlar bazarını dəstəkləyir, çünki bu etibar və sərmayəçi inamının qazanılmasının əsasıdır.

İnsayder ticarəti o zaman mövcud olur ki şəxsin qiymətli kağızları alıb-satma qərarı ona şirkətdəki fəaliyyəti ilə bağlı olaraq məlum olan vacib və ictimaiyyətə acıq olmayan məlumat əsasında formalaşır.

Məlumat o zaman vacib sayılır ki hər hansı sərmayeçi şirkətin qiymətli kağızlarının alqısı, satqısı və ya saxlanması qərarının verilməsi zamanı belə məlumatı mühüm hesab etsin Məlumat içtimai qaydada açıqlanmayana və ya qiymətli kağızlar bazarı üçün əhəmiyyətini itirməyənədək vacib sayılır. Əsaslı və ictimaiyyətə açıq olmayan məlumata aşağıdakılar daxildir:

- Rəhbərlikdə dəyişikliklər edilməsi barədə əvvəlcədən bildiriş;
- Elan edilməmiş birləşdirmə və ya əldə etmə;
- Gözləyən və ya bitməkdə olan məhkəmə işi;
- Məxvi maliyyə məlumatları;
- Mühüm yeni məhsulun istehsalı;
- Elan edilməmiş səhm tədiyyəsi.

Biz LafargeHolcim şirkətində işləyən zaman əldə edilmiş insayder məlumatına əsasən LafargeHolcim-in və ya hər hansı şirkətin qiymətli kağızları ilə ticarət etmirik.



**Müvafiq LafargeHolcim Siyasəti**
- Ticarət və Bazar Açıqlama Direktivi

İnsayder ticarət qanunları yalnız daxili məlumat əsasında qiymətli kağızlarla ticarəti qadağan etmir, eyni zamanda bu cür məlumatın üçüncü tərəflərlə paylaşılmasını da qadağan edir.

# Bu mənim üçün nə deməkdir?

?

Ağır avadanlıq təchizatçısı gizli surətdə Sizə yaxınlaşır və bazara yeni mexanizmləri təqdim etməyi planlaşdırdıqlarını bildirir. Siz artıq LafargeHolcim şirkətinin məhsuldan istifadə edə bilməməsinə qərar vermisiniz, lakin düşünürsünüz ki, bu, başqa sənayelər üçün ciddi irəliləyiş ola bilər. Təchizatçı bu yeni mexanizmlər üçün müştəri taparsa, onun səhmlərinin qiymətləri çox yüksəyə qalxacaqdır. Bu təchizatçının qiymətli kağızlarını almanız düzgündürmü?

**Xeyr. Siz ictimaiyyət yeni məhsul haqda bilməyənədək təchizatçının heç bir qiymətli kağızlarını satın ala bilməzsiniz. Təqdimat məxfi saxlandığı üçün bu, "daxili məlumatdır". Hələ tam və dolğun içtimai açıqlama edilməmişdir. Sərmayəçinin məlumatı şirkətlə bağlı sərmayə qərarlarının verilməsi üçün mühüm hesab edə bilməsi səbəbindən məlumat "vacib" hesab edilir.**

!

# 2.7 Sanksiya və embarqo

LafargeHolcim dünyanın bir sıra bazarları və regionlarında təmsil edilir və beləlikə müxtəlif hüquq sistemlərinin qanun və qaydalarına uyğun fəaliyyət göstərir.

Biz dünya üzrə məhsullar, xidmətlər və texnologiyalar təqdim edirik. Beləliklə, biz bütün müvafiq ixrac və idxal qanunları, o cümlədən ticarət sanksiyaları, embarqolar və başqa qanunlar, qaydalar və dövlət sərəncamları və siyasətlərinə riayət edirik.

Məhsul, xidmət və ya texnologiyanın bir ölkədən digər ölkəyə ixrac edilmə imkanı məhsulun təbiəti, istehsal ölkəsi, son istifadəsi və son istifadəçisi kimi bir sıra amillərdən asılıdır. Sanksiya və embarqolar müəyyən ölkələr, adı çəkilən fiziki və hüquqi şəxslər və müəyyən son istifadəçilərlə əməliyyatları məhdudlaşdırır. Biz bu məhdudiyyətlər barədə məlumatlı olmalı və bütün sənədləri əməliyyata və ya məhsulların ixracına başlamazdan öncə tələb edildiyi kimi əldə etməliyik.

## Bu mənim üçün nə deməkdir?

?

Müştəri Sizdən sementi qonşu ölkədə yerləşən tanımadığınız şirkətə çatdırmağı xahiş edir. Ölkə BMT tərəfindən sanksiya altına alınıb. Siz müştərinin sorğusunu icra edib etməməyi bilmirsiniz. Bu zaman nə etməlisiniz?

**Siz sorğuya necə cavab vermək barədə yerli komplayens mütəxəssisi ilə məsləhətləşməlisiniz. Göndərmə imkanı müştərinin göndərməyinizi istədiyi ölkə, ixrac olunacaq məhsul, məhsuldan kimin və necə istifadə edəcəyi kimi bir sıra amillərdən asılıdır.**

!

# 2.8 Çirkli pulların yuyulmasının qarşısının alınması

**Bizim məqsədimiz qanuni biznes fəaliyyəti ilə məşğul olan və vəsaitləri qanuni mənbələrdən əldə edilən nüfuzlu biznes ortaqlarımızla əməkdaşlıq etməkdir.**

Çirkli pulların yuyulması cinayət əməlidir və pulun mənbələrini terrorizm, narkotik satışı və rüşvətxorluq kimi cinayət əməlləri ilə əlaqələndir. Cinayət yolu ilə əldə edilən və həqiqi mənbəyi və sahibi məlum olmayan pullar ticarət axınına buraxıldıqda cinayət əməli baş vermiş sayılır.

LafargeHolcim şirkətinin çirkli pulların yuyulmasında istifadə edilməsinin qarşısını almaqdan ötrü əməkdaşlarımız nağd ödənişlər və digər biznes əməliyyatları üçün nəzərdə tutulmuş bütün mühasibat, qeydiyyat və maliyyə hesabatları ilə bağlı tələblərə əməl etməlidirlər.

LafargeHolcim əməkdaşları kimi biz ödəniş pozuntularının aşkarlanması, müştərilər və ya başqaları tərəfindən şübhəli davranışlara diqqətliyik.

Təklif edilən əməliyyatla bağlı şübhəniz və ya suallarınız olarsa, rəhbəriniz və ya yerli komplayens mütəxəssisi ilə məsləhətləşin.





# 3. İcmada dürüstlük



# 3.1 Ətraf Mühit

**Məsuliyyətli vətəndaşlar kimi biz hamımız ətraf mühitlə bağlı daimi öhdəliyimizi və təbii resursları qorumaq və coxaltmaqda fəal olmaq lazım olduğunu bilirik. Biz təbiətə mənfi təsiri azaltmağa, müsbət təsiri isə artırmağa çalışırıq.**

LafargeHolcim biznes fəaliyyəti ilə məşğul olduğu ətraf mühiti qorumağa çalışır və bunun üçün aşağıdakı məsələlərə ciddi önəm verən siyasətlər hazırlamışdır:

- İstixana qaz emissiyası;
- Enerjiyə qənaət;
- Suya qənaət;
- İstehsalat tullantılarının azaldılması və düzgün idarə olunması;
- Daimi revalvasiya, istehsalat prosesində tullantıların atılması, bərpası və təkrar istifadəsi;
- Dayanıqlı xammaldan və təcrübədən istifadə;
- Karxanaların rekultivasiyası və biomüxtəlifliyin idarə edilməsi;
- Ətraf mühit qanunları və tələblərə əməl etmək;
- Ətraf mühitlə bağlı tələblərə uyğunluq və iş göstəricilərinin yoxlanması və qeydə alınması.

LafargeHolcim eyni zamanda minimal standartlar təyin edən bir sıra dövlət tələbləri və ətraf mühit qanunlarına əməl edir. LafargeHolcim şirkətində biz yüksək davranış standartları üçün çalışırıq.

Biz mütəmadi olaraq bu sahələrdəki işimizi yoxlayır və daima iş göstəricilərimizi yaxşılaşdırmaq üçün fəaliyyət planları hazırlayırıq.

Biz daima Sizi suya qənaət, tullantıların azaldılması, faydalı şəkildə bərpa edilməsi, təkrar istifadəsi, enerjiyə qənaət və biomüxtəlifliyin idarə edilməsi daxil olmaqla, təbii resurslardan qənaətli istifadəyə səsləyirik. LafargeHolcim şirkətini dəstəkləmək və məqsədlərimizlə bağlı ətraflı məlumat almaq üçün ətraf mühit koordinatoru ilə əlaqə saxlayın.

**Müvafiq LafargeHolcim Siyasəti**
- Ətraf Mühit Siyasəti Alternativ Yanacaq
- və Resurslar (AYR) Siyasəti



# 3.2 İnsan hüquqları

Biz biznes fəaliyyətimiz çərçivəsində insan hüquqlarına hörmət etmək və onları qorumağa çalışırıq.

Biz aşağıdakıları qadağan edir və bu fəaliyyətlərdə iştirak edən fiziki və ya hüquqi şəxslərlə bilərəkdən əməkdaşlıq etmirik:

- Uşaqların və uşaq əməyinin istismarı;
- Cisnmani cəza;
- Əməkdaşlara qarşı zorakılıq (xüsusilə cins, mənsubiyyət, din və ya seksual orientasiya əsasında);
- Məcburi və ya icbari iş;
- İş və işə qəbul zamanı diskriminasiya;
- Təhlükəli iş mühitinin yaradılması;
- İşçiyə qeyri-qanuni şəkildə minimal əmək haqqından az maaş təqdim edən əmək haqqı ödənişləri (və ya deduksiyalar); və
- Qeyri-qanuni əlavə iş saatı qaydaları.

Bizim insan hüquqları ilə bağlı öhdəliyimiz Korporativ Sosial Məsuliyyət (KSM) Siyasətimizdə qeyd edilmiş və BMT Global Compact proqramında iştirakımızla təsdiq edilmişdir. LafargeHolcim şirkətinin İnsan Hüquqlarının İdarə edilməsi Sistemi bütün Qrup şirkətlərinə şamil edilir. Bu sistem bizim, eləcə də münasibətdə olduğumuz, təchizatçılar, podratçılar və digər üçüncü tərəflərin davranışını qiymətləndirir.

LafargeHolcim və ya onun ortaqlarından hər hansı birinin insan hüquqlarını pozmasını düşünmək üçün əsasınız olarsa, bunu yerli komplayens mütəxəssisi ilə paylaşın.

## Bu mənim üçün nə deməkdir?

?

Mən təchizatçı ilə işləyirəm. Eşitdiyim şayiəyə görə, bu təchizatçı uşaq və bəzən də dustaqları öz iş yerində işlədir. Mən nə etməliyəm?

**Siz bu şayiəni yerli komplayens mütəxəssisinə bildirməlisiniz ki O da öz növbəsində KSM əməkdaşları ilə birgə müvafiq addımlar ataraq bu şayiənin həqiqət olub-olmadığını müəyyən etsin. LafargeHolcim insan hüquqları məsələsinə ciddi yanaşır və öz təchizatçılarının belə yanaşmasını təmin etmək üçün əlindən gələni edir.**

!

**Müvafiq LafargeHolcim Siyasəti**

- Korporativ Sosial Məsuliyyət (KSM) Siyasəti

# 3.3 İcmanın həyatında iştirak

LafargeHolcim etibarlı korporativ tərəf olmağa və fəaliyyət göstərdiyi icmalar qarşısında öhdəliklərini yerinə yetirməyə çalışır.

Biz icmanın bütün əlaqəli şəxsləri ilə qarşılıqlı hörmət və etibara əsaslanan sərmayə və əməkdaşlıqla buna nail olmağa çalışırıq.

Biz insanlar və planetimizə hörmət edir və əməkdaşlarımızdan biznes qərarları qəbul edən zaman icma və ətraf mühitə qısamüddətli və uzunmüddətli təsirləri nəzərə almağı xahiş edirik.

### Siyasi ianələr

LafargeHolcim bir şirkət kimi siyasətə münasibəti neytraldır. Siyasi partiyalar, siyasətçilər və ya namizədlərə ianələr əməkdaşlarımızın şəxsi məsələləridir. LafargeHolcim binaları və aktivləri heç zaman müəyyən siyasi partiya və ya namizəd üçün vəsait toplamaq və ya kampaniya keçirmək üçün istifadə edilə bilməz. Yerli qanun və müvafiq LafargeHolcim siyasət və təlimatlarında xüsusilə yazılı şəkildə icazə verilmədiyi halda (bu zaman bu cür ianələr düzgün və şəffaf şəkildə sənədləşdirilməli və qeyri-müvafiq fayda müqabilində olmamalıdır) LafargeHolcim-in adından siyasi ianələrə yol verilmir.



**Müvafiq LafargeHolcim Siyasəti**
- Korporativ Sosial Məsuliyyət (KSM) Siyasəti

# Bu mənim üçün nə deməkdir?

?

Siz LafargeHolcim əməkdaşı kimi siyasi partiyanın təşkil etdiyi gecəyə dəvət almısınız. Gecədə partiyanın yeni siyasətinin təqdimatından sonra vəsait toplanacağı gözlənilir. Sizin gecə üçün biletinizdə təqdimatın mövzusu qeyd edilmiş və bu bileti almaqla partiyaya vəsait ödəmiş  lduğunuz göstərilmişdir. Bu zaman nə etməlisiniz?

**Sizin siyasi gecəyə qatılmanız LafargeHolcim tərəfindən siyasi partiyanın dəstəklənməsi anlamına gələ bilər.  Siz bu cür dəvətlərin qəbul edilməsi zamanı diqqətli olmalı və onları qəbul etməzdən öncə yerli komplayens mütəxəssisi ilə məsləhətləşməlisiniz.  Hər halda gecəyə qoşulsanız, bu fərdi fiziki şəxs kimi edilməlidir.**

!

# Məsləhət, təlimat və məlumat

Tez və ya gec LafargeHolcim şirkəti üçün işləyərkən əxlaqi dilemma ilə qarşılaşa bilərsiniz. Nə olursa olsun, söyləməkdən, vəzifələriniz barədə suallar verməkdən və narahatlıq və ya qeyri-müvafiq davranış barədə lazım olduqda məlumat verməkdən çəkinməyin. Hər zaman ilk öncə sual və ya narahatlıqlarınızı bilavasitə rəhbəriniz və ya İnsan Resursları, Hüquq, Daxili Audit, Daxili Nəzarətlər, Təhlükəsizlik departamentlərinin nümayəndələri və yerli komplayens mütəxəssisi kimi Sizə kömək edə bilən başqa insanlara bildirin.

**Qaynar Xətt**
Məsələni yuxarıdakı şəxslərdən hər hansı biri ilə müzakirə etməkdən çəkinirsinizsə, alternativ olaraq LafargeHolcim-in Qaynar Xətti ilə əlaqə saxlamalı,inandığınız və ya şübhə etdiyiniz Kodeks və ya qanun pozuntusu və ya hər hansı vəziyyət barədə məsələ qaldırmalı və ya məsləhət almalısınız.

Qaynar Xətti 2015/2016-cı illədə LafargeHolcim Group vasitəsilə yaradılmışdır. Sizin ölkənizdə mövcud olduqda LafargeHolcim Qaynar Xəttinə ölkəniz üçün təqdim edilmiş telefon nömrəsinə zəng etməklə və ya https://integrity.lafargeholcim.com səhifəsindəki formanı doldurmaqla müraciət etmək olar. Siz eyni zamanda +41 58 858 8700 nömrəsinə zəng etməklə və ya group-compliance@lafargeholcim.com ünvanına elektron məktub göndərməklə birbaşa olaraq Qrupun Komplayens Departamenti ilə əlaqə saxlaya bilərsiniz.

Sizin məlumatınız LafargeHolcim-in Qrup Komplayens və ya daxili araşdırma bölməsinin mütəxəssislər peşəkarcasına baxıb və onunla davranacaqlar. Məlumatlar təfərruatı ilə məxfi şəkildə davranılacaq və yalnız şirkətin maraqlarını qorunmasını təmin edən insanlarla paylaşılacaq.

**Daxili araşdırma, audit və daxili nəzarət fəaliyyəti ilə qarşılıqlı əlaqə**
Kodeksin və ya qanunun pozulmasının qarşısının alınması və ya aşkarlanması LafargeHolcim şirkətində çox ciddi qəbul edilir. Eynilə Kodeksin və ya qanunun hər hansı potensial pozuntusu da dərhal araşdırılır. Bu zaman əməkdaşlardan bütün məlumat sorğularına cəld cavab vermək daxil olmaqla tam və dürüst şəkildə araşdırma, audit və ya daxili nəzarət prosesində iştirak etmək tələb edilir. LafargeHolcim siyasətləri və təlimatlarına əsasən çap edilmiş, elektron və e-poçt faylları daxil olmaqla bütün sənədlər şirkətin mülkiyyətidir və vaxtaşırı olaraq araşdırma, audit və ya daxili nəzarət və qanuna uyğunluğun təmin edilməsi üçün məxfiliyin qorunması üzrə qanunun tələbləri gözlənməklə nəzərdən keçirilə bilər.

**Təqibdən müdafiə**
LafargeHolcim dürüst şəkildə narahtlığını paylaşan əməkdaşlara qarşı heç bir cəzalandırma tətbiq etmir. Narahatlığını paylaşan və ya araşdırmada iştirak edən şəxslərə qarşı şəxsi cəzalandırma addımı atan şəxslərə qarşı intizam tətbirləri görüləcək (əmək müqaviləsinə xitam verilməsi daxil olmaqla).

**Müvafiq LafargeHolcim Siyasəti**
- Komplayens Məlumatlandırma Dirketivi

+41 58 858 8700
group-compliance@lafargeholcim.com
https://integrity.lafargeholcim.com

# Mən nə zaman danışmalıyam?

?

Rəhbəriniz Sizə xərc hesabatını dəyişməyi əmr edir, lakin Siz bilirsiniz ki, bu, LafargeHolcim siyasətlərinin və bu Kodeksin pozulması sayılacaq. Sizə əmr etdiyini icra etmədikdə rəhbərinizin sizin işinizi çətinləşdirməsindən qorxursunuz. Bu zaman nə etməlisiniz?

!

**Siz bunun ciddi problem ola bilməsini müəyyən etmisiniz. Adətən rəhbəriniz ilk mərhələdə söhbət edilməli olan ən yaxşı şəxsdir. Alternativ olaraq, rəhbərinizin meneceri ilə də bu məsələni qaldırmaq olar. Rəhbərinizin cəlb edilməsi səbəbində Qaynar Xətt-ə müraciət etmək bu halda ən yaxşı həlldir.**





**LafargeHolcim Ltd**
Zürcherstrasse 156
8645 Jona
Switzerland
www.lafargeholcim.com

© 2018 LafargeHolcim Ltd

LafargeHolcim